AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

# QİCS-ə yox!

## Özünüzü qoruyun!

### QİÇS nədir?

– qazanılmış immun çatışmazlığı sindromu. İnsanın İmmun çatışmazlığı Virusu (İİV) tərəfindən törədilən və bir şəxsdən digərinə keçərək, immun sistemini dağıdan və ölümlə nəticələnən yoluxucu xəstəlikdir.

**QİÇS-ə yoluxma yolları:**

- Qorunmayan cinsi əlaqə zamanı;
- Yoluxmuş qan və onun komponentlərinin köçürülməsi zamanı;
- Yoluxmuş şprislə narkotiklərin inyeksiyası zamanı;
- Yoluxmuş tibbi alətlər vasitəsilə (həmçinin dəriyə yazı döydürmək, qulaq deşmək üçün istifadə edilən iynələrlə və s.)
- Yoluxmuş qan və digər mayelərlə təsadüfi təmas nəticəsində;
- Hamiləlik, doğuş və döşlə əmizdirmə zamanı yoluxmuş anadan uşağa ötürülmə.

### Narkotiklərin inyeksiyası

İİV ötürülmə yollarından ən çox təsadüf edilənlərdən biri də, ümumi şprislə narkotiklərin inyeksiyası və yaxud yoluxmuş qanla təmasda olan əşyalardan istifadə edilməsidir. Dəri altına və ya damara inyeksiya zamanı iynələrdə müəyyən qədər qalan qan sonradan digər şəxsin orqanizminə keçə bilər. Beləliklə, bu virusa yoluxmuş şəxsin qanı narkotiklərin inyeksiyası zamanı bir neçə şəxsi yoluxdura bilər. Belə bir nəticə həmçinin, ümumi şprislə steroidlərin inyeksiyası zamanı da baş verə bilər (bunu idmançılar tez-tez əzələ kütləsinin artırılması üçün istifadə edir).

**Özünüzü yoluxmadan qorumaq üçün:**

- Təsadüfi cinsi əlaqələrdən çəkinin;
- Cinsi əlaqə zamanı qoruyucu vasitələrdən istifadə edin;
- Narkotiklərdən istifadə etməyin;
- Sterilizə olunmamış iynələrdən və alətlərdən istifadə etməyin.

QİÇS – sağalmayan xəstəlikdir. Müalicə metodları hələlik yalnız xəstənin ömrünü uzada bilər. Özünüzü və yaxınlarınızı qoruyun!